## AZƏRBAYCAN RESPUBLİKASININ İDXAL VƏ İXRAC RÜSUMLARI VƏ VERGİLƏRİ HAQQINDA PROTOKOL

Vergilərə dair müəyyən prinsiplər 14 dekabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) və "GL International LTD" MMC arasında imzalanmış, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilərək 5 aprel 2022-ci il tarixində qüvvəyə minmiş və Azərbaycan Respublikasında tam qanun qüvvəsinə malik olan "Azərbaycan Respublikasında Buzovna-Maştağa, Qala və Zirə neft yataqlarının daxil olduğu blokun bərpası və işlənməsi ilə əlaqədar" Risk Xidmət Sazişində (**"Saziş"**) nəzərdə tutulmuşdur.

Sazişin Vergi ilə bağlı müddəalarının həyata keçirilməsi üçün Podratçı tərəflərlə lazımi inzibati qaydaların yaradılması və razılaşdırılması məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyini yanında Dövlət Vergi Xidmətinin rəis müavininin rəhbərliyi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyini yanında Dövlət Vergi Xidməti, Maliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin nümayəndələrindən ibarət Komissiyanın (**"Komissiya"**) yaradılması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 fevral 2003-cü il tarixli 27s saylı Sərəncamı verilmişdir.

Sazişin 12-ci Maddəsinin (Vergi tutulması) və 18-ci Maddəsinin (Müqavilələr, Satınalma, Yerli Təchizatçılar, İdxal və İxrac) müddəalarına uyğun olaraq, Sazişin 23-cü Maddəsinin (Tətbiq edilən hüquq, iqtisadi sabitləşmə və arbitraj) və Sazişin 5-ci Əlavəsində qeyd olunan Hökumət təminatının müddəalarını nəzərə almaqla, Komissiya və Podratçı tərəflər bu qaydaları müəyyən etmək, onların ardıcıl və ədalətli tətbiqini təmin etmək, habelə Sazişin müddəalarının mövcud təfsirini daha ətraflı şəkildə aydınlaşdırmaq məqsədi ilə hazırkı "Azərbaycan Respublikasının idxal və ixrac rüsumları və vergiləri haqqında Protokol"u (**"bu Protokol"**) imzalamaq barədə razılığa gəlmişlər.

## PROTOCOL CONCERNING AZERBAIJAN IMPORT AND EXPORT DUTIES AND TAXES

Certain principles concerning Taxes are contained in the Risk Service Agreement related to the Rehabilitation and Development of the block including the Buzovna-Mashtaga, Gala and Zyria oil fields in the Republic of Azerbaijan entered into on 14 December 2021 by and among the State Oil Company of the Republic of Azerbaijan (SOCAR) and GL İnternational LTD LLC which became effective on 5 April 2022 (the **"Contract"**).

The Cabinet of Ministers of the Republic of Azerbaijan issued Decree Number 27s dated 26 February 2003 forming a Commission headed by the Deputy Chief of the State Tax Service under the Ministry of Economy of the Republic of Azerbaijan comprised of representatives of the State Tax Service under the Ministry of Economy of the Republic of Azerbaijan, Ministry of Finance, State Customs Committee and the State Oil Company of the Republic of Azerbaijan (the **"Commission"**) to establish and agree with the Contractor Parties the administrative procedures necessary to implement the Tax provisions of the Contract.

In accordance with Article 12 (Taxation) and Article 18 (Contracts, Procurement, Local Suppliers, Import and Export) of the Contract, having regard also to Article 23 (Applicable Law, Economic Stabilisation and Arbitration) of the Contract and the provisions of the Government Guarantee contained within Appendix 5 of the Contract, the Commission and the Contractor Parties have agreed to enter into this Protocol Concerning Azerbaijan Import and Export Duties and Taxes (**"this Protocol"**), to establish, and to provide for consistent and fair administration of, these procedures and to further clarify existing interpretation of the Contract.

Bu Protokol onların Sazişə dair qarşılıqlı anlaşmasını və Azərbaycan Respublikasında Karbohidrogen fəaliyyəti ilə bağlı təqdim edilən mallara, işlərə və xidmətlərə idxal və ixrac Vergilərinin qoyulması, onlardan azad olunma qaydalarına və onların tətbiqində istifadə ediləcək prosedurlara, habelə Sazişə əsasən Karbohidrogenlərin ixracı ilə əlaqədar gömrük qaydalarına dair tam razılaşmasını müəyyən edir.

Bu Protokol 26 Oktyabr 2023-cü il tarixindən (**"Qüvvəyə minmə tarixi"**) qüvvəyə minir.

## 1. İdxal və ixrac Vergilərindən azad olmanın ümumi prinsipləri

1.1. Podratçı, Əməliyyat şirkəti, onların Ortaq şirkətləri, agentləri və Subpodratçıları (bundan sonra hər biri **"Qeydiyyatdan keçmiş şirkət"** adlandırılacaqdır) heç bir Vergi tutulmadan və heç bir məhdudiyyət qoyulmadan aşağıdakıları öz adlarından Azərbaycan Respublikasına idxal və yenidən ixrac etmək hüququna malikdirlər: hər cür avadanlıq, materiallar, dəzgahlar və alətlər, nəqliyyat vasitələri, ehtiyat hissələri, Podratçının əsaslandırılmış rəyinə görə, Neft-qaz əməliyyatlarının lazımınca aparılması və yerinə yetirilməsi üçün zəruri olan mallar və başqa əşyalar (qida məhsulları, spirtli içkilər və tütün məmulatı istisna olmaqla); bu şərtlə ki, bunlarla əlaqədar olaraq Azərbaycan Təchizatçılarına üstünlük verilsin, əgər həmin Azərbaycan Təchizatçıları digər mənbələrlə müqayisədə bütün mühüm aspektlərdə qiymət, çatdırılma, texniki təhlükəsizlik və digər mühüm müqavilə şərtləri baxımından rəqabət edə biləcək və keyfiyyət nöqteyi-nəzərindən məqbul səviyyədədirlərsə (Neft-qaz sənayesində qəbul edilmiş beynəlxalq müsbət təcrübəyə uyğun olaraq Neft-qaz Əməliyyatları kontekstində müvafiq qaydada), o cümlədən rüşvətxorluğa və korrupsiyaya qarşı tərəf-müqabillərin yoxlanması tələblərini ədalətli və obyektiv şəkildə yerinə yetirərlərsə və əgər Azərbaycan təchizatçısının müqavilə qiyməti potensial qalib gələ bilən xarici təchizatçının təklif etdiyi müqayisə olunan müqavilə qiymətindən on (10) faizdən artıq deyilsə.

1.2. Komissiya və Podratçı təsdiq edirlər ki, Əməliyyat şirkətinin kontrakt komitəsi 1.1-ci bənddə göstərilən mallar, işlər və xidmətlər üzrə

This Protocol sets out their mutual understanding of the Contract, and their full agreement on the procedures which are to be utilised in determining the charge to, exemption procedures and administration of import and export Taxes on goods, works and services provided in respect of Hydrocarbon Activities in the Republic of Azerbaijan, as well as customs procedures in respect of exports of Petroleum under the Contract.

This Protocol shall become effective as of 26 October 2023 (**"Effective Date"**).

## 1. General Principles of Exemption from Import and Export Taxes

1.1. Contractor, Operating Company, their Affiliates, agents and Sub-contractors (each hereinafter referred to as **"Registered Company"**) shall have the right to import into, and re-export from the Republic of Azerbaijan free of any Taxes and restrictions in their own name the following: all equipment, materials, machinery and tools, vehicles, spare parts, goods and supplies (excluding foodstuff, alcohol and tobacco products) necessary in Contractor's reasonable opinion for the proper conduct and achievement of Petroleum Operations; provided, however, that with respect to the purchase thereof Contractor shall give preference to Azerbaijani Suppliers in those cases in which such Azerbaijani Suppliers are in all material respects competitive in price, delivery, safety and other principal contract terms and acceptable quality (as relevant in the context of the Petroleum Operations in accordance with Good International Petroleum Industry Practice) with those available from other sources including compliance with fairly and objectively performed anti-bribery and anti-corruption due diligence process, even if the contract price of such an Azerbaijani Supplier of goods, works and/or services is higher by not more than ten (10) percent than the proposed comparable contract price of the potential winning Foreign Sub-contractor.

1.2. The Commission and Contractor acknowledge that with regard to the awarding of contracts for the goods, works and services referred to in sub-

kontraktların bağlanmasını Sazişin 18-ci Maddəsində (Müqavilələr, Satınalma, Yerli Təchizatçılar, İdxal və İxrac) nəzərdə tutulmuş şərtlərə düzgün əməl edərək və Sazişdə verilmiş səlahiyyətlərə uyğun Podratçının müstəsna rəyinə əsasən həyata keçirir. Bundan əlavə, Sazişin bu şərtlərinin düzgün tətbiqinə və yerinə yetirilməsinə SOCAR-ın nümayəndələri nəzarət edirlər.

1.3. Yuxarıda deyilənlərə baxmayaraq, Podratçı Neft-qaz əməliyyatları üçün alınmış və məsrəfləri Neft-qaz əməliyyatları hesabına daxil edilmiş hər hansı maddi sərvətləri Azərbaycan Respublikasından yenidən ixrac etmək hüququna malik deyildir (təmir və ya texniki xidmətlə bağlı zəruri hallar istisna edilməklə, lakin bu şərtlə ki, həmin təmir və ya texniki xidmət başa çatdırıldıqdan sonra əsaslandırılmış müddət ərzində bu maddi sərvətlər Azərbaycan Respublikasına yenidən idxal edilsin).

1.4. Hər bir Qeydiyyatdan keçmiş şirkət, onun bütün əməkdaşları və onların ailə üzvləri Vergi tutulmadan və məhdudiyyət qoyulmadan istənilən vaxt Azərbaycan Respublikasına mebel, paltar, məişət texnikası, nəqliyyat vasitələri, ehtiyat hissələri və Azərbaycan Respublikasına iş üçün ezam olunan və ya səfər edən əcnəbi əməkdaşların və onların ailə üzvlərinin şəxsi istifadəsindən ötrü hər hansı şəxsi əmlak (qida məhsulları, spirtli içkilər və tütün məmulatı istisna olmaqla) idxal və yenidən ixrac etmək hüququna malikdirlər.

1.5. Hər bir Podratçı tərəf, Əməliyyat şirkəti, onların müştəriləri və onların hər birinin Agentləri (o cümlədən nəqletmə Agentləri) bu Sazişin müddəalarına uyğun olaraq Podratçı tərəfə çatası Karbohidrogenləri heç bir rüsum və Vergi ödəmədən (Mənfəət vergisindən başqa) istənilən vaxt sərbəst şəkildə ixrac etmək hüququna malikdirlər.

1.6. Hər bir Qeydiyyatdan keçmiş şirkət yuxarıda 1.1-ci və 1.4-cü bəndlərdə göstərilən malların idxalına və ixracına, habelə Sazişin şərtlərinə görə Podratçı tərəfə çatası Karbohidrogenlərin ixracına aid Azərbaycan Respublikasında qüvvədə olan hər hansı xarici ticarət qaydalarının müddəalarından, qadağanlardan və müxtəlif məhdudiyyətlərdən azad olunurlar.



paragraph 1.1 by the Operating Company's contract committee and in accordance with the Contract giving Contractor the sole discretion to make such a determination, the conditions set out in Article 18 (Contracts, Procurement, Local Suppliers, Import and Export) of the Contract are being correctly applied and adhered with. Further, the correct application of and adherence with these conditions of the Contract is monitored by SOCAR representatives.

1.3. Notwithstanding the foregoing, (except when necessary for repair or maintenance provided that, within a reasonable time after completion of the repair or maintenance, such items shall be re-imported into the Republic of Azerbaijan) Contractor shall not have the right to re-export from the Republic of Azerbaijan any items purchased for Petroleum Operations, the costs of which have been included in the Petroleum Operations Account.

1.4. Each Registered Company and all of their employees and family members, shall have the right to import into, and re-export from the Republic of Azerbaijan, free of Taxes and restrictions and at any time, furniture, clothing, household appliances, vehicles, spare parts, and all personal effects (excluding foodstuffs, alcohol and tobacco products) for personal use by foreign employees and their families assigned to work in, or travel to, the Republic of Azerbaijan.

1.5. Each Contractor Party, Operating Company, their customers and any Agents of the foregoing (including transportation Agents) shall have the right to export free of all duties and Taxes (except for Profit Tax) and at any time, Petroleum to which Contractor is entitled in accordance with the provisions of the Contract.

1.6. Each Registered Company shall be exempt from the provisions of any foreign trade regulations of the Republic of Azerbaijan concerning the prohibition, limitation and restriction of import and export of items indicated in sub-paragraphs 1.1 and 1.4 above, and with respect to the Petroleum allocated to Contractor pursuant to the Contract.

1.7. Bu Protokolun 4-cü maddəsinin müddəaları nəzərə alınmaqla, əgər mallar, işlər və ya xidmətlər Karbohidrogen fəaliyyətinin yerinə yetirilməsi üçün deyil, başqa məqsədlər üçün təqdim edilirsə, onda belə mallar, işlər və ya xidmətlər Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq idxal və ixrac Vergilərinə cəlb edilir.

**2. İdxal və ixrac rüsumları və Vergilərindən azad olma haqqında Sertifikatın alınma qaydası**

2.1. Hər bir Podratçı tərəf və ya Əməliyyat şirkəti Sazişə və bu Protokola uyğun olaraq idxal, ixrac və yenidən ixrac rüsumları və Vergilərindən azad olduğunu bildirən İdxal və ixrac rüsumları və Vergilərindən azad olma haqqında sertifikat (**"Sertifikat"**) almaq üçün Dövlət Gömrük Komitəsinə yazılı ərizə ilə müraciət edir.

2.2. Hər hansı Əməliyyat şirkəti ilə və ya Podratçı tərəf ilə birbaşa və ya dolayısı ilə müqavilə bağlamış hər bir Subpodratçı, Sazişə və bu Protokola uyğun olaraq idxal və yenidən ixrac rüsumları və Vergilərindən azad olduğunu bildirən Sertifikat almaq üçün Dövlət Gömrük Komitəsinə Əlavə 3-də göstərilən formada ərizə ilə müraciət etməyə haqlıdır.

2.3. Subpodratçının Dövlət Gömrük Komitəsinə yazılı ərizəsi onunla müqavilə bağlamış şirkətin həmin Subpodratçı ilə Sazişə uyğun olaraq mallar, işlər və ya xidmətlər təqdim etmək üçün müqavilə bağlandığını təsdiq edən Əlavə 4-də göstərilmiş formada məktubu ilə müşayiət olunur.

2.4. Dövlət Gömrük Komitəsi yazılı ərizəni almasından sonrakı otuz (30) Gün ərzində Qeydiyyatdan keçmiş şirkətə Əlavə 2-də göstərilən formada nömrələnmiş Sertifikat verir. Dövlət Gömrük Komitəsi Sertifikatı verməkdən imtina edərsə, bu halda həmin otuz (30) Gün ərzində Qeydiyyatdan keçmiş şirkətə yazılı şəkildə səbəbini izah edir.



1.7. Subject to Paragraph 4 of this Protocol, in the event that goods, works or services are supplied for purposes other than Hydrocarbon Activities, such goods, works or services shall be subject to import and export Taxes in accordance with the Azerbaijan Legislation.

**2. Procedure for Application for a Certificate of Exemption from Import and Export Duties and Taxes**

2.1. Each Contractor Party or Operating Company shall apply in writing to the State Customs Committee for a Certificate of Exemption from Import and Export Duties and Taxes (the **"Certificate"**) stating that they are exempt from import, export and re-export duties and Taxes in accordance with the Contract and this Protocol.

2.2. A Sub-contractor who has been awarded a contract directly or indirectly by an Operating Company or Contractor Party shall be entitled to make an application to the State Customs Committee in the format shown in Appendix 3 for a Certificate stating that they are exempt from import and re-export duties and Taxes in accordance with the Contract and this Protocol.

2.3. The application in writing by a Sub-contractor to the State Customs Committee shall be supported by a letter from the company who has awarded the contract in the format as shown in Appendix 4 confirming that the Sub-contractor has been awarded a contract to provide goods, works or services in accordance with the Contract.

2.4. The State Customs Committee will issue to the Registered Company a numbered Certificate in the form shown in Appendix 2 within thirty (30) Days of receiving a written application. In the event of a refusal to issue the Certificate, the State Customs Committee shall inform the Registered Company in writing within the said thirty (30) Day period, stating the reason for refusal.

2.5. Əməliyyat şirkətinə və Podratçı tərəflərə verilən hər bir Sertifikat beş (5) Təqvim ili ərzində etibarlı olur. Əməliyyat şirkəti, Podratçı tərəflər və ya onların Agentləri Sertifikatı təzələmək üçün ərizə ilə müraciət edə bilər. Dövlət Gömrük Komitəsi yeni Sertifikatı onun təzələnməsi üçün verilmiş ərizənin alındığı gündən sonrakı otuz (30) Gün ərzində verir. Yeni Sertifikat verildiyi zaman Əməliyyat şirkəti, Podratçı tərəflər və ya onların Agentləri köhnə Sertifikatın vaxtının qurtarıb-qurtarmamasından asılı olmayaraq onu təhvil verirlər.

2.6. Subpodratçıya verilən hər bir Sertifikat bir (1) Təqvim ili ərzində və ya Subpodratçı ilə bağlanmış müqavilənin müddəti bir (1) Təqvim ilindən azdırsa, həmin müqavilənin qüvvədə olduğu müddətdə etibarlı olur. Subpodratçı Sertifikatı təzələmək üçün ərizə ilə müraciət edə bilər. Dövlət Gömrük Komitəsi yeni Sertifikatı onun təzələnməsi üçün verilmiş yazılı ərizənin alındığı gündən sonrakı otuz (30) Gün ərzində verir. Yeni Sertifikat verildiyi zaman Subpodratçı köhnə Sertifikatın vaxtının qurtarıb-qurtarmamasından asılı olmayaraq onu təhvil verir.

2.7. Karbohidrogen fəaliyyəti ilə bağlı biznes fəaliyyətləri bitdikdən dərhal sonra bütün cari Sertifikatlar Dövlət Gömrük Komitəsinə təhvil verilir.

2.8. Heç bir Sertifikat başqasına ötürülə və ya güzəşt edilə bilməz.

## 3. İdxal, ixrac və yenidən ixrac üzrə sənədləşmənin idarə olunması

3.1. Mallar, işlər və ya xidmətlər idxal edildikdə, idxal edən Qeydiyyatdan keçmiş şirkət müvafiq gömrük qanunları və qaydalarına əsasən tələb olunan bütün sənədlərlə yanaşı aşağıdakıları müvafiq Gömrük orqanına təqdim edir:

(i) Sertifikatın surətini;
(ii) Malların, işlərin və ya xidmətlərin Karbohidrogen fəaliyyəti və ya Neft-qaz əməliyyatları üçün idxal olunmasının Əməliyyat şirkəti və ya Podratçı tərəfindən təsdiqini.

2.5. Each Certificate issued to the Operating Company and Contractor Parties will be valid for the period of five (5) Calendar Years. The Operating Company, Contractor Parties, or their Agents may apply for the renewal of the Certificate. The State Customs Committee shall issue a new Certificate within thirty (30) Days of receiving a written application for the renewal of the Certificate. At the time the new Certificate is issued, each of the Operating Company, Contractor Parties or their Agents shall surrender the old Certificate, whether expired or not.

2.6. Each Certificate issued to a Sub-contractor will be valid for one (1) Calendar Year or the term of the Sub-contractor's contract if shorter than one (1) Calendar Year. The Sub-contractor may apply for the renewal of the Certificate. The State Customs Committee shall issue a new Certificate within thirty (30) Days of receiving a written application for the renewal of the Certificate. At the time the new Certificate is issued, the Sub-contractor shall surrender the old Certificate, whether expired or not.

2.7. All Certificates still current shall be surrendered to the State Customs Committee upon the cessation of the business operations conducted in connection with Hydrocarbon Activities.

2.8. Each Certificate is non-transferable and non-assignable.

## 3. Administration of Import, Export and Re-export Documentation

3.1. Upon importation of goods, works or services the importing Registered Company shall provide the relevant Customs Authority with all necessary documents required by applicable customs laws and regulations, including the following:

(i) copy of the Certificate;
(ii) authorisation from the Operating Company or a Contractor Party confirming that the goods, works or services are being imported for the use in Hydrocarbon Activities or Petroleum Operations.

3.2. Mallar, işlər və ya xidmətlər yenidən ixrac edildikdə, ixrac edən Qeydiyyatdan keçmiş şirkət müvafiq Gömrük orqanına Sertifikatın surəti ilə birlikdə belə yenidən ixrac edilən malların, işlərin və ya xidmətlərin Karbohidrogen fəaliyyəti və ya Neft-qaz əməliyyatları ilə bağlı idxal və ya istifadə edildiyini və məsrəfləri Neft-qaz əməliyyatları hesabına daxil edilmədiyini təsdiq edən Əməliyyat şirkəti və ya Podratçı tərəfin yazılı bildirişini təqdim edir. SOCAR tərəfindən Neft-qaz əməliyyatları hesabının təftişi aparıldıqdan sonra və Dövlət Gömrük Komitəsinin sorğusuna əsasən, SOCAR təftişin əhatə etdiyi dövr ərzində yenidən ixrac edilmiş malların, işlərin və ya xidmətlərin məsrəflərinin Neft-qaz əməliyyatları hesabına daxil edilmədiyini təsdiq edən arayış təqdim edir.

3.3. Əgər mallar, işlər və ya xidmətlər yuxarıda verilmiş 1.4-cü bənddə nəzərdə tutulduğu kimi şəxsi istifadə üçün idxal (və ya müvafiq olaraq yenidən ixrac) edilirsə, onda Qeydiyyatdan keçmiş şirkət həmin şəxsin kimin üçün işlədiyini təsdiq edən yazılı bildiriş təqdim edir.

3.4. Xam neft ixrac edildikdə, ixrac edən Qeydiyyatdan keçmiş şirkət müvafiq Gömrük orqanına hər növbəti təqvim ayı ərzində ixrac ediləcək Xam neftin miqdarına dair aşağıdakı sənədləri təqdim edir:

(i) müvəqqəti yük gömrük bəyannaməsinin əsli (hər ay üçün);
(ii) mənşə sertifikatının surəti (hər ay üçün).

3.5. Xam neft boru kəmərləri vasitəsilə ixrac edildikdə, ixrac edən Qeydiyyatdan keçmiş şirkət müvafiq Gömrük orqanına hər Təqvim rübünün ilk otuz (30) Günü ərzində əvvəlki Təqvim rübü ərzində ixrac edilmiş Xam neftin hər Partiyasına dair aşağıdakı sənədləri təqdim edir:

(i) yekun yük gömrük bəyannaməsinin əsli (hər Konosament üçün);
(ii) Konosamentin surəti (hər gəmi üçün), və ya göndərilmiş Xam neftin həcmini göstərən digər nəqliyyat sənədi;
(iii) yük manifestinin surəti (hər gəmi üçün);
(iv) müvəqqəti yük gömrük bəyannaməsinin surəti (hər ay üçün);

3.2. Upon re-exportation of goods, works or services the exporting Registered Company shall provide the relevant Customs Authority with a copy of the current Certificate together with a written statement by Operating Company or Contractor Party that the goods, works or services so re-exported have been imported or used for Hydrocarbon Activities or Petroleum Operations, and the costs of which have not been included in the Petroleum Operations Account. Following an audit by SOCAR of the Petroleum Operations Account and at the request of the State Customs Committee, SOCAR will provide confirmation that the costs of the goods, works or services re-exported during the audit period have not been included in the Petroleum Operations Account.

3.3. In the case that goods, works or services have been imported (or as appropriate re-exported) for personal use as envisaged in sub-paragraph 1.4 above, the Registered Company will supply a written statement confirming for whom the individual works.

3.4. In respect of exports of Crude Oil, the exporting Registered Company shall provide to the relevant Customs Authority the following documents in respect of quantity of Crude Oil to be exported during each next calendar month:

(i) original provisional cargo customs declaration (per month);
(ii) copy of certificate of origin (per month).

3.5. In respect of exports of Crude Oil via pipelines, the exporting Registered Company shall provide to the relevant Customs Authority during the first thirty (30) Days of each Calendar Quarter the following documents in respect of each Batch of Crude Oil exported during the preceding Calendar Quarter:

(i) original final cargo customs declaration (per Bill of Lading);
(ii) copy of Bill of Lading (per vessel), or such other consignment document confirming quantity of Crude Oil dispatched;
(iii) copy of cargo manifest (per vessel);
(iv) copy of provisional cargo customs declaration (per month);

(v) boru kəməri vasitəsilə ixrac edilən Xam neft həcmlərinin müvafiq neft terminalında təhvil-qəbulu aktının surəti (hər ay üçün);
(vi) mənşə sertifikatının surəti (hər ay üçün).

3.6. Xam neft dəmir yolu vasitəsilə ixrac edildikdə, ixrac edən Qeydiyyatdan keçmiş şirkət müvafiq Gömrük orqanına hər Təqvim rübünün ilk otuz (30) Günü ərzində əvvəlki Təqvim rübü ərzində ixrac edilmiş Xam neftin hər Partiyasına dair aşağıdakı sənədləri təqdim edir:

(i) yekun yük gömrük bəyannaməsinin əsli (hər Konosament üçün);
(ii) Konosamentin surəti (hər gəmi üçün), və ya göndərilmiş Xam neftin həcmini göstərən digər nəqliyyat sənədi;
(iii) yük manifestinin surəti (hər gəmi üçün);
(iv) müvəqqəti yük gömrük bəyannaməsinin surəti (hər qatar üçün);
(v) mal alanın adını göstərən dəmir yolu nəqliyyat qaiməsinin surəti (hər qatar üçün);
(vi) dəmir yolu vasitəsilə ixrac edilən Xam neft həcmlərinin müvafiq neft terminalında təhvil-qəbulu aktının surəti (hər ay üçün);
(vii) mənşə sertifikatının surəti (hər ay üçün);
(viii) alqı-satqı müqaviləsindən çıxarışın surəti, əgər varsa.

3.7. İxrac edilən Xam neftin dəyərini bəyan etmək məqsədilə, və yalnız gömrük (statistika) məqsədləri üçün, Qeydiyyatdan keçmiş şirkət və müvafiq Gömrük orqanı ixrac əməliyyatının həyata keçirildiyi Təqvim rübü üçün "Platts Oilgram" nəşrində (www.platts.com) həmin Təqvim rübündə "Azəri Layt" markalı Xam neftin orta qiymətini istifadə edəcəkdir. "Platts Oilgram"ın nəşri dayandırıldıqda, lazımi məlumat neft sənayesində beynəlxalq miqyasda qəbul edilən münasib alternativ nəşrdən götürülür.

3.8. Təbii qaz ixrac edildikdə, ixrac edən Qeydiyyatdan keçmiş şirkət müvafiq Gömrük orqanına hər Təqvim rübünün ilk qırx beş (45) Günü ərzində əvvəlki Təqvim rübü ərzində ixrac edilmiş Təbii qazın aylıq həcmlərinə dair aşağıdakı sənədləri təqdim edir:



(v) copy of delivery act at the respective oil terminal for volumes of Crude Oil exported by pipeline (per month);
(vi) copy of certificate of origin (per month).

3.6. In respect of exports of Crude Oil via railway, the exporting Registered Company shall provide to the relevant Customs Authority during the first thirty (30) Days of each Calendar Quarter the following documents in respect of each Batch of Crude Oil exported during the preceding Calendar Quarter:

(i) original final cargo customs declaration (per Bill of Lading);
(ii) copy of Bill of Lading (per vessel), or such other consignment document confirming quantity of Crude Oil dispatched;
(iii) copy of cargo manifest (per vessel);
(iv) copy of provisional cargo customs declaration (per train);
(v) copy of railway bill showing the name of the consignee (per train);
(vi) copy of delivery act at the respective oil terminal for volumes of Crude Oil exported by railway (per month);
(vii) copy of certificate of origin (per month);
(viii) copy of excerpt from a sales contract, if applicable.

3.7. For purposes of declaring the value of Crude Oil exported, and for customs (statistical) purposes only, the Registered Company and the relevant Customs Authority shall use the average price of Azeri Light Crude Oil for the Calendar Quarter in which the export occurred, as published in Platts Oilgram (www.platts.com) during such Calendar Quarter. In the event that Platts Oilgram ceases to be published, then the required data shall be taken from an available alternative publication internationally recognised by the Petroleum industry.

3.8. In respect of exports of Natural Gas, the exporting Registered Company shall provide to the relevant Customs Authority during the first forty-five (45) Days of each Calendar Quarter the following documents in respect of the monthly volumes of Natural Gas exported during the preceding Calendar Quarter:

(i) yekun yük gömrük bəyannaməsinin əsli (aylıq həcm üçün);
(ii) mənşə sertifikatının surəti, olduğu halda (aylıq həcm üçün);
(iii) müvafiq nəzarət uçotu qovşağında boru kəməri əməliyyatçısı tərəfindən verilən ölçmə hesabatının surəti;
(iv) boru kəməri vasitəsilə nəql edilmiş aylıq həcmi təsdiq edən, Təbii qazın satışına dair müvafiq saziş(lər)ə uyğun olaraq yükgöndərən(lər)in və onun alıcısının (alıcılarının) səlahiyyətli nümayəndələri tərəfindən imzalanmış kommersiya aktının surəti (aylıq həcm üçün);
(v) Təbii qazın cari qiymətini təsdiq edən Təbii qazın satışına dair saziş(lər)in müvafiq müddəalarının surəti;
(vi) Tranzit zamanı potensial qaz itkiləri və qazın yanacaq kimi istifadə olunmasını təsdiq edən, boru kəməri əməliyyatçısı tərəfindən verilən hesabatın surəti.

3.9. Bu 3-cü maddədə və Azərbaycan Respublikasının Qanunvericiliyində nəzərdə tutulan sənədlərdən başqa, Saziş üzrə malların, işlərin və xidmətlərin idxalı və yenidən ixracı, habelə Karbohidrogenlərin ixracı zamanı heç bir digər sənəd tələb edilmir.

3.10. Dövlət Gömrük Komitəsinin sədri və ya onun səlahiyyətli müavini Qeydiyyatdan keçmiş şirkətin idxal, ixrac və yenidən ixrac sənədlərinin yoxlanılmasına sərəncam verə bilər və belə yoxlamadan əvvəl münasib müddət ərzində bildiriş təqdim edir. Həmin yoxlama idxal, ixrac və ya yenidən ixrac əməliyyatının aparıldığı müvafiq müqavilənin (idxal-ixrac kontraktının) qüvvədə olduğu müddət ərzində aparılır.

3.11. Xarici subpodratçının Azərbaycan Respublikasındakı nümayəndəliyi və ya filialı ləğv edildikdə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti həmin Xarici subpodratçının Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatları ilə bağlı yerinə yetirilməmiş öhdəliklərin olub-olmaması haqqında Dövlət Gömrük Komitəsindən arayış alır.



(i) original final cargo customs declaration (per monthly volume);
(ii) copy of certificate of origin, if available (per monthly volume);
(iii) copy of measurement report produced by the pipeline operator at the applicable custody transfer metering station;
(iv) copy of commercial act signed by the authorised representatives of shipper(s) and their buyer(s) in accordance with the corresponding Natural Gas sales agreement(s) confirming the monthly volume transported through the pipeline (per monthly volume);
(v) copy of corresponding Natural Gas sales agreement(s) provisions confirming the current price for the Natural Gas;
(vi) copy of report produced by the pipeline operator verifying potential gas losses and gas used as fuel during transit.

3.9. Except for the documents stipulated in this Paragraph 3 and as provided in the Azerbaijan Legislation, no other documents shall be required upon importation and re-exportation of goods, works and services, as well as upon exportation of Petroleum under the Contract.

3.10. The Chairman of the State Customs Committee or his authorised deputy may authorise an audit of the importation, exportation and re-exportation records of a Registered Company, and will provide reasonable advance notice of such audit. Such audit shall be carried out within the term of the agreement (import/export contract) under which the respective import, export or re-export operation was made.

3.11. Upon liquidation of a representative office or a branch of a Foreign Sub-contractor in the Republic of Azerbaijan, the State Tax Service under the Ministry of Economy of the Republic of Azerbaijan will obtain from the State Customs Committee information relating to such Foreign Sub-contractor's outstanding obligations in connection with import/export operations in the Republic of Azerbaijan.

## 4. Ötürmə və sərəncam vermə

4.1. Əgər mallar, işlər və ya xidmətlər 1-ci maddəyə uyğun olaraq Azərbaycan Respublikasına Vergi və rüsumlar tutulmadan Qeydiyyatdan keçmiş şirkət tərəfindən idxal edilmişsə və aşağıda sadalananlardan hər hansı birinə:

(i) Neft-qaz əməliyyatları və ya Karbohidrogen fəaliyyəti ilə əlaqədar istifadəsini davam etmək üçün digər Qeydiyyatdan keçmiş şirkətə və ya onun hər hansı əməkdaşına; və ya

(ii) hər hansı Digər saziş üzrə fəaliyyətlə bağlı istifadə etmək üçün hər hansı Digər qeydiyyatdan keçmiş şirkətə; və ya

(iii) Sazişin şərtlərinə əsasən Azərbaycan Respublikasını təmsil edən səlahiyyətli quruma; və ya

(iv) beynəlxalq neft və qaz sənayesində qəbul edilmiş təcrübəyə və onların gündəlik işgüzar fəaliyyətlərinə uyğun olaraq məsrəflərin bölüşdürülməsi və ya digər nə qazanc, nə ziyan prinsipi əsasında Qeydiyyatdan keçmiş şirkətə; və ya

(v) diplomatik nümayəndəliklərə və ya onlara bərabər tutulan qurumlara

Azərbaycan Respublikasında satılmış, verilmiş, güzəşt edilmiş, icarəyə verilmiş və ya onlara başqa şəkildə sərəncam verilmişsə, onda heç bir idxal və yenidən ixrac Vergiləri və ya rüsumları ödənilmir. Bu halda mallar yalnız mülkiyyətçinin dəyişməsini qeydiyyata almaq üçün Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq yenidən bəyan olunur.

4.2. Əgər mallar, işlər və ya xidmətlər 1-ci maddəyə uyğun olaraq Azərbaycan Respublikasına Vergi və rüsumlar tutulmadan Qeydiyyatdan keçmiş şirkət tərəfindən idxal edilmişsə və 4.1-ci bənddə göstərilməyən hər hansı tərəfə Azərbaycan Respublikasında satılmış, verilmiş, güzəşt edilmiş, icarəyə verilmiş və ya onlara başqa şəkildə



## 4. Transfers and Disposals

4.1. If goods, works or services are imported into the Republic of Azerbaijan free of Taxes and duties by a Registered Company in accordance with Paragraph 1 and are sold, assigned, transferred, leased or otherwise disposed of in the Republic of Azerbaijan to any one of the following:

(i) to another Registered Company, or any of their employees, for continued use in connection with Petroleum Operations or Hydrocarbon Activities; or

(ii) to any Other Registered Company for use in any Other Contract Activities; or

(iii) to an authorised entity representing the Republic of Azerbaijan in accordance with the terms of the Contract; or

(iv) to a Registered Company on a cost-sharing or other no gain/no loss basis in accordance with established practices of the international petroleum industry and in accordance with their ordinary business activities; or

(v) to diplomatic representations or entities having equal status;

then no import and re-export Taxes or duties will be payable for such goods, works or services. In such event, goods shall be re-declared in accordance with the Azerbaijan Legislation only for the purposes of registering the change of ownership.

4.2. If goods, works or services are imported into the Republic of Azerbaijan free of Taxes and duties by a Registered Company in accordance with Paragraph 1 and are sold, assigned, transferred, leased or otherwise disposed of in the Republic of Azerbaijan to a party not listed in sub-paragraph 4.1 above, then, subject to sub-paragraphs 4.3 and 4.4 below,

sərəncam verilmişsə, onda, aşağıdakı 4.3-cü və 4.4-cü bəndlərin müddəaları nəzərə alınmaqla, müvafiq Vergilər Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq hesablanır və ödənilir.

4.3. Yuxarıda göstərilən 4.2-ci bəndə uyğun olaraq ödənilməli olan idxal və yenidən ixrac Vergiləri alıcının ödədiyi və ya ödəməli olduğu haqqın məbləği üzərinə hesablanır və mallar yenidən bəyan olunduğu zaman Manatla Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürülür.

4.4. Əgər yuxarıda göstərilən 4.2-ci bəndə uyğun olaraq idxal və ya yenidən ixrac Vergiləri və ya rüsumlarının tutulmasına gətirib çıxara bilən idxal edilmiş mallar, işlər və ya xidmətlər sıfır dəyəri ilə özgəninkiləşdirilirsə (balansdan silinirsə), onda heç bir idxal və ya yenidən ixrac Vergiləri və ya rüsumları ödənilmir. Belə aktivləri özgəninkiləşdirməkdən qabaq, Podratçı Sazişin əsas fondların ləğv edilməsinə və materiallar və avadanlıqların özgəninkiləşdirilməsinə dair müddəalarına əməl etməlidir.

**5. Gömrük rəsmiləşdirilməsi (sənədləşdirmə) xidmətləri üçün yığımlar**

5.1. Hər bir Qeydiyyatdan keçmiş şirkət gömrük rəsmiləşdirilməsi (sənədləşdirmə) xidmətlərinin müqabilində müvafiq yığımları ödəyir, bu şərtlə ki, belə yığımlar nominal olsun, gömrük xidmətinə çəkilən faktiki məsrəflərə uyğun gəlsin və ayrı-seçkilik olmadan tətbiq edilsin.

5.2. Malların, işlərin və xidmətlərin idxalı və yenidən ixracı zamanı (Karbohidrogenlərin ixracı istisna olmaqla) gömrük rəsmiləşdirilməsi xidmətləri üçün alınan yığımlar heç bir halda aşağıda göstərilən maksimum məbləğlərdən artıq olmamalıdır:

| **Yükün bəyan edilmiş dəyəri, Dollarla** | **Gömrük yığımı** |
|---|---|
| $0 – $100.000 | dəyərin 0,15%-i |
| $100.001 – $1.000.000 | 150 Dollar üstəgəl 100.001 Dollardan artıq dəyərin 0,10%-i |



applicable Taxes shall be calculated and paid in accordance with the Azerbaijan Legislation.

4.3. Import and re-export Taxes payable pursuant to sub-paragraph 4.2 above shall be calculated on the amount which is paid or payable by the buyer and shall be remitted to the state budget of the Republic of Azerbaijan in Manats upon the re-registration of the asset.

4.4. If imported goods, works or services which would have given rise to import or re-export Taxes or duties as set out in sub-paragraph 4.2 above are disposed of for nil value (i.e. written off), no import or re-export Taxes or duties shall be payable. Prior to making any such disposition, Contractor shall comply with the relevant terms of the Contract regarding abandonment of fixed assets and disposals of material and equipment.

**5. Customs Service/Documentation Fees**

5.1. Each Registered Company shall pay any customs service/ documentation fees to the extent that they are nominal and consistent with the actual costs of providing such customs service/documentation and are of a non-discriminatory nature.

5.2. In respect of imports and re-exports of goods, works and services the customs service/documentation fees shall in no event exceed the following maximum amounts:

| **Declared Value of Shipment in Dollars** | **Customs Fee** |
|---|---|
| $0 – $100,000 | 0.15% of value |
| $100,001 – $1,000,000 | $150 plus 0.10% of value over $100,001 |

| | |
|---|---|
| \$1.000.001 – \$5.000.000 | 1.050 Dollar üstəgəl 1.000.001 Dollardan artıq dəyərin 0,07%-i |
| \$5.000.001 – \$10.000.000 | 3.850 Dollar üstəgəl 5.000.001 Dollardan artıq dəyərin 0,05%-i |
| \$10.000.000-dan yuxarı | 6.350 Dollar üstəgəl 10.000.000 Dollardan artıq dəyərin 0,01%-i |

5.3. Aşağıdakı 5.5-ci bəndin müddəaları nəzərə alınmaqla, Karbohidrogenlərin ixracı zamanı bəyan edilmiş dəyərdən və ixrac yolu və üsulundan asılı olmayaraq, Karbohidrogenlərin hər Partiyasına uyğun hər bir yekun yük gömrük bəyannaməsinə görə gömrük rəsmiləşdirilməsi xidmətləri üçün min (1000) Manat məbləğində sabit yığım tutulur.

5.4. Yuxarıdakı 5.2-ci və 5.3-cü bəndlərdə müəyyən edilmiş gömrük rəsmiləşdirilməsi yığımlarının məbləğləri Sazişin qüvvədə olduğu bütün müddət ərzində (ona edilən hər hansı uzadılmalar, təzələmələr və ya dəyişikliklər daxil olmaqla) sabit və dəyişməz qalır.

5.5. İxrac yolu və üsulundan asılı olmayaraq, Sazişə və bu Protokola əsasən ixrac edilən Karbohidrogenlərə görə hər hansı müvəqqəti yük gömrük bəyannamələrinə görə heç bir yığım tutulmur.

5.6. Yuxarıda 5.2-ci bənddə qeyd edilmiş bəyan olunan dəyər idxal və ixrac sənədlərinə əsasən müəyyən olunur. Bu dəyər Dollar yaxud Manatla deyil, başqa valyuta ilə göstərildikdə, belə bəyan olunan dəyər idxal yaxud ixrac tarixindən əvvəlki həftənin axırıncı İş gününün sonunda Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnəyə əsasən Manata çevrilir.

5.7. Malların, işlərin və xidmətlərin idxalı və yenidən ixracı zamanı gömrük rəsmiləşdirilməsi xidmətləri üçün bütün yığımlar həmin malların, işlərin və xidmətlərin müvafiq Gömrük orqanı tərəfindən gömrük



| | |
|---|---|
| \$1,000,001 – \$5,000,000 | \$1,050 plus 0.07% of value over \$1,000,001 |
| \$5,000,001 – \$10,000,000 | \$3,850 plus 0.05% of value over \$5,000,001 |
| More than \$10,000,000 | \$6,350 plus 0.01% of value over \$10,000,000 |

5.3. Subject to the provisions of sub-paragraph 5.5 below, in respect of exports of Petroleum, irrespective of the route and means of export and the value declared, a fixed customs service/ documentation fee in the amount of one thousand (1,000) Manats per final cargo customs declaration relating to a Batch of Petroleum shall apply.

5.4. The amounts of customs service/documentation fees set forth in sub-paragraphs 5.2 and 5.3 above shall remain fixed and unchanged for the whole duration of the Contract, including any extension, renewal or modification thereof.

5.5. No fees for any provisional cargo customs declarations shall be payable in respect of exports of Petroleum under the Contract and this Protocol, irrespective of the route and means of export.

5.6. The declared value referred to in sub-paragraph 5.2 above shall be as specified on the import and export documentation. Where this sum is shown in a currency other than Dollars or Manats, such declared value shall be converted into Manats at the closing exchange rate for the last Business Day of the week preceding the import or export date, as the case may be, as quoted by the Central Bank of the Republic of Azerbaijan.

5.7. All customs service/documentation fees relating to imports or re-exports of goods, works or services shall be payable in Manats on or before the dates the goods, works or services are cleared from customs by the

rəsmiləşdirilməsi bitdiyi tarixdə, yaxud bu tarixdən əvvəl Manatla ödənilir. Belə ödənişlər Gömrük orqanının müvafiq hesabına köçürülür. Belə ödənişin həyata keçirildiyini təsdiq edən qəbzin surəti mallar, işlər və xidmətlər gömrük rəsmiləşdirilməsindən keçdiyi tarixdə müvafiq Gömrük orqanına təqdim edilir.

5.8. Karbohidrogenlərin ixracı zamanı gömrük rəsmiləşdirilməsi xidmətləri üçün yığımlar Gömrük orqanından müvafiq hesab alındığı tarixdən on (10) İş günü ərzində Manatla ödənilir. Həmin hesab müvafiq olaraq 3.5-ci, 3.6-cı və ya 3.8-ci bəndlərdə göstərilən sənədlər müvafiq Gömrük orqanına təqdim edildikdən sonra beş (5) İş günü ərzində Qeydiyyatdan keçmiş şirkətə verilir. Ödənişlər Gömrük orqanının müvafiq hesabına köçürülür. Belə ödənişin həyata keçirildiyini təsdiq edən qəbzin surəti Karbohidrogenlər gömrük rəsmiləşdirilməsindən keçdiyi (təsdiq edilmiş yekun yük gömrük bəyannamələri Qeydiyyatdan keçmiş şirkətə verildiyi) tarixdə müvafiq Gömrük orqanına təqdim edilir. Gömrük orqanından müvafiq hesab alındıqdan sonra ödəniş bu bənddə nəzərdə tutulmuş müddətdən artıq gecikdirildiyi halda Azərbaycan Respublikasının Qanunvericiliyində nəzərdə tutulmuş tələblər əsas götürülür.

5.9. Müvafiq Gömrük orqanları Karbohidrogen fəaliyyəti və ya Neft-qaz əməliyyatları ilə əlaqədar idxal və ixrac edilən malların, işlərin və xidmətlərin, habelə Saziş üzrə ixrac edilən bütün Karbohidrogenlərin vaxtında gömrük rəsmiləşdirilməsindən keçməsini təmin etmək üçün bütün mümkün səyləri göstərir.

5.10. Podratçının müvafiq xahişi olduqda SOCAR Sazişə və bu Protokola əsasən müəyyən edilmiş azad olmaları təmin etmək və Qeydiyyatdan keçmiş şirkətlərin və onların bütün əməkdaşlarının və ailə üzvlərinin hər hansı avadanlığının və ya digər mallarının gömrük rəsmiləşdirilməsini sadələşdirmək və sürətləndirmək üçün malik olduğu bütün səlahiyyətləri daxilində bütün lazımi qanuni tədbirləri görəcəkdir.

5.11. Bu Protokolun Qüvvəyə minmə tarixindən əvvəl idxal, ixrac və ya yenidən ixrac edilən malların, işlərin, xidmətlərin, texnologiyaların və

relevant Customs Authority. Such payments shall be made to the appropriate account of the relevant Customs Authority. A copy of the receipt evidencing such payment shall be provided to the relevant Customs Authority at the time the goods, works or services are cleared from customs.

5.8. Customs service/documentation fees relating to exports of Petroleum shall be payable in Manats within ten (10) Business Days following receipt of an appropriate invoice from the relevant Customs Authority. Such invoice shall be issued to the Registered Company within five (5) Business Days following submission to the relevant Customs Authority of the documents referred to in sub-paragraphs 3.5, 3.6 or 3.8, as the case may be. Payments shall be made to the appropriate account of the relevant Customs Authority. A copy of the receipt evidencing such payment shall be provided to the relevant Customs Authority at the date the Petroleum is cleared from customs (the date when the approved final cargo customs declarations are submitted to the Registered Company). In the event of delay in payment beyond the period stipulated in this sub-paragraph following receipt of the appropriate invoice from the relevant Customs Authority, requirements of the Azerbaijan Legislation shall apply.

5.9. The relevant Customs Authorities shall make every endeavour to clear goods, works and services imported and exported in connection with Hydrocarbon Activities or Petroleum Operations, and all Petroleum exported in accordance with the Contract, in an expeditious manner.

5.10. SOCAR within the full limits of its authority shall use all reasonable lawful endeavours, when requested to do so by Contractor, to ensure that the exemptions under the Contract and this Protocol are applied and expedite the movement through customs of any equipment or supplies of the Registered Companies and all of their employees and family members.

5.11. No penalties, fines, interest or other sanctions shall apply in respect of customs clearance of goods, works, services, technology and Petroleum

Karbohidrogenlərin gömrük rəsmiləşdirilməsi ilə əlaqədar heç bir cərimə, faiz, dəbbə pulu və ya digər sanksiyalar tətbiq edilmir.

## 6. Vergilərin ödənilməsi və qaytarılması

6.1. Hər hansı Qeydiyyatdan keçmiş şirkət, onun əməkdaşı və ya əməkdaşının ailə üzvü 1-ci maddəyə uyğun olaraq Vergilərdən azad edilmiş mallar, işlər və ya xidmətlər idxal və ya ixrac edərkən hər hansı idxal və ya ixrac Vergiləri və ya rüsumları ödəyərsə, onda hər belə tərəf belə ödənilmiş Vergiləri və rüsumları gələcək idxal və ya ixrac Vergiləri və ya rüsumları hesabına əvəzləşdirə bilər və ya ödənilmiş idxal və ya ixrac Vergi və ya rüsumlarının tam məbləğini aidiyyatı üzrə Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq geri almaq üçün müraciət edə bilər.

## 7. Digər məsələlər

7.1. Hər Qeydiyyatdan keçmiş şirkət müvafiq Subpodratçılarına bu Protokol barədə məlumat verilməsi üçün məsuliyyət daşıyır.

7.2. Yuxarıda açıqlanan prosedurların hər hansı birinin aydınlaşdırılması tələb olunduğu və ya bu prosedurlarla əlaqədar Azərbaycan Respublikasının hər hansı vəzifəli şəxsi tərəfindən sorğu verildiyi halda Komissiya tərəfindən məsələnin vaxtında həll edilməsi üçün istənilən zəruri köməyini göstərir.

7.3. Bu Protokolun istənilən tərəfi Sazişin qüvvədə olduğu müddət ərzində Sazişdə qeyd olunan idxal və ixrac ilə bağlı müddəaların təsirli və səmərəli tətbiqinin təmin olunması kimi özlərinin ümumi məqsədinə dəstək vermək üçün istənilən vaxt bu Protokola düzəlişlər edilməsi ilə əlaqədar digər tərəflərə təkliflər təqdim edə bilər.

7.4. Bu Protokol Azərbaycan və ingilis dillərində tərtib edilmiş və imzalanmışdır və Sazişin müvafiq bəndləri nəzərə alınmaqla hər iki mətn eyni hüquqi qüvvəyə malikdir.



imported, exported or re-exported prior to the Effective Date of this Protocol.

## 6. Payment and Repayment of Taxes

6.1. Where in accordance with Paragraph 1, a Registered Company, or any of their employees or an employee's family member, should be entitled to import or export goods, works or services exempt from Taxes, but is charged and pays import or export Taxes or duties, such party shall offset the import or export Taxes and duties so paid against any future import or export Taxes and duties payable or such party shall file for a refund of such overpayment for the full amount of the import or export Taxes or duties so paid in accordance with Azerbaijan Legislation.

## 7. Other Issues

7.1. Each Registered Company shall be responsible for notifying its respective Sub-contractors of this Protocol.

7.2. In the event that any clarification of the procedures outlined above is required or there is any query from an official of the Republic of Azerbaijan concerning these procedures the Comission shall provide whatever assistance is necessary to resolve the issue in a timely manner.

7.3. With a view toward furthering their common objective of ensuring the effective and efficient application of the provisions of the Contract concerning import and export, any party to this Protocol may propose amendments to this Protocol to the other parties at any time during the term of the Contract.

7.4. This Protocol is made and executed in the English and Azerbaijani languages and in accordance with the Contract both languages shall have equal force.

Bu Protokol 26 Oktyabr 2023-cü ildə bir tərəfdən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Maliyyə Nazirliyinin, Dövlət Gömrük Komitəsinin və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin nümayəndələrindən ibarət Komissiya və digər tərəfdən "Azərbaycan Respublikasında Buzovna-Maştağa, Qala və Zirə neft yataqlarının daxil olduğu blokun bərpası və işlənməsi ilə əlaqədar" Risk Xidmət Sazişi üzrə Podratçı tərəflər arasında bağlanmışdır.

This Protocol is entered into this 26 day of October 2023 by and among the Commission, comprised of representatives of the State Tax Service under the Ministry of Economy , Ministry of Finance, State Customs Committee and the State Oil Company of the Republic of Azerbaijan, of the one part, and Contractor Parties under the Agreement related to the Rehabilitation and Development of the block including the Buzovna-Mashtaga, Gala and Zyria oil fields in the Republic of Azerbaijan .

Komissiyanın adından və onun tapşırığı ilə:

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən:**

İmza

Samirə Əlisayeva
Adı

Xidmət rəisinin müavini
Vəzifəsi

İmza

Fərhad Quliyev
Adı

Baş İdarənin rəisi
Vəzifəsi



For and on behalf of the Commission:

**Representing the State Tax Service under the Ministry of Economy of the Republic of Azerbaijan:**

Signature

Samira Alisayeva
Name

Deputy Head of Service
Title

Signature

Farhad Guliyev
Name

Head of Main Department
Title

**Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən:**

İmza

Ülvi Məmmədov

Adı

Baş İdarə rəisinin müavini

Vəzifəsi

İmza

Adı

Vəzifəsi

**Representing the State Customs Committee of the Republic of Azerbaijan:**

Signature

Ulvi Mammadov

Name

Deputy Chief of Head Department

Title

Signature

Name

Title

**Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən:**

[signature]
İmza

Rafiq İsmayılov
Adı

Şöbə müdirinin müavini
Vəzifəsi

İmza

Adı

Vəzifəsi

**Representing the Ministry of Finance of the Republic of Azerbaijan:**

[signature]
Signature

Rafiq İsmayilov
Name

Deputy Head of Department
Title

Signature

Name

Title

**Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti tərəfindən:**

İmza

Elçin Ağakişiyev

Adı

SOCAR PREZİDENTİNİN MÜŞAVİRİ

Vəzifəsi

İmza

D. Yagubov

Adı

SUEMI İD müavini

Vəzifəsi

**Representing the State Oil Company of the Republic of Azerbaijan:**

Signature

Eltchin Aghakishiyev

Name

ADVISOR TO THE PRESIDENT OF SOCAR

Title

Signature

D. Yagubov

Name

SUEMI Deputy GM.

Title

Podratçı tərəflərin adından və onların tapşırığı ilə:

**GL İnternational LTD şirkəti tərəfindən:**

İmza

Asif Zeynalov

Adı

B/D

Vəzifəsi

İmza

Adı

Vəzifəsi

For and on behalf of the Contractor Parties:

**Representing GL International LTD:**

Signature

Asif Zeynalov

Name

CEO

Title

Signature

Name

Title

## Əlavə 1
## Təriflər

Bu Protokolda istifadə edilən böyük hərflərlə yazılmış söz və ifadələrin bu sənəddə başqa tərifi yoxdursa, onlar Sazişdə həmin söz və ifadələrə verilmiş mənaya malikdirlər. Aşağıda verilmiş söz və ifadələr bu Protokolda istifadə edilərkən aşağıda göstərilmiş mənanı daşıyırlar:

**"Agent"** – malların, işlərin və ya xidmətlərin Azərbaycan Respublikasına idxalı və ya Azərbaycan Respublikasından ixracı, yaxud Karbohidrogenlərin Azərbaycan Respublikasından ixracı əməliyyatlarında digər şəxsin adından çıxış edən hər hansı şəxs deməkdir.

**"Ortaq şirkət"** – (a) Podratçı tərəfə aid olanda:

(i) elə şirkət, korporasiya və ya hər hansı başqa hüquqi şəxsdir ki, göstərilən Podratçı tərəf həmin şirkətin, korporasiyanın və ya hər hansı digər hüquqi şəxsin ümumi yığıncağında səslərin əlli faizindən (50%) çoxunu təmin edən səhmlərin bilavasitə və ya dolayısı ilə sahibidir; yaxud

(ii) elə şirkət, korporasiya və ya hər hansı başqa hüquqi şəxsdir ki, o həmin Podratçı tərəfin ümumi yığıncağında səslərin əlli faizindən (50%) çoxunu təmin edən səhmlərin bilavasitə və ya dolayısı ilə sahibidir; yaxud

(iii) elə şirkət, korporasiya və ya hər hansı başqa hüquqi şəxsdir ki, onun həmin şirkətin, korporasiyanın və ya hər hansı digər hüquqi şəxsin ümumi yığıncağında səslərin əlli faizindən (50%) çoxunu təmin edən səhmləri bilavasitə və ya dolayısı ilə elə şirkətə, korporasiyaya və ya digər hüquqi şəxsə məxsusdur ki, o həm də bilavasitə və ya dolayısı ilə həmin Podratçı tərəfin ümumi yığıncağında səslərin əlli faizindən (50%) çoxunu təmin edən səhmlərin sahibidir;

(b) SOCAR-a aid olanda –SOCAR-ın payı olduğu və fəaliyyətinə nəzarət etmək (Sazişin 9.2(c) bəndində müəyyən edildiyi kimi), onu idarə etmək



## Appendix 1
## Definitions

Capitalised words and phrases used in this Protocol not otherwise defined herein shall have the meaning attributed to such words and phrases in the Contract. As used in this Protocol, the following words and phrases shall have the meaning ascribed to them below:

**"Agent"** means any person who acts on behalf of another person in respect of the importation or exportation of goods, works or services to or from the Republic of Azerbaijan or in respect of the exportation of Petroleum from the Republic of Azerbaijan.

**"Affiliate"** means, (a) in relation to any Contractor Party, either

(i) a company, corporation or other legal entity in which such Contractor Party holds directly or indirectly shares carrying more than fifty percent (50%) of the votes at a general meeting of such company, corporation or other legal entity; or

(ii) a company, corporation or other legal entity holding directly or indirectly shares carrying more than fifty percent (50%) of the votes at a general meeting of such Contractor Party; or

(iii) a company, corporation or other legal entity of which shares carrying more than fifty percent (50%) of the votes at a general meeting of such company, corporation or other legal entity are held directly or indirectly by a company, corporation or other legal entity which also holds directly or indirectly shares carrying more than fifty percent (50%) of the votes at a general meeting of such Contractor Party;

(b) and, furthermore, in relation to SOCAR, any venture or enterprise, in which SOCAR has an interest and the right to control (as defined in Article 9.2(c) of the Contract), manage or direct the action thereof.

və ya fəaliyyətini istiqamətləndirmək hüququ olduğu hər hansı müəssisə və ya təşkilat deməkdir.

**"Azərbaycan Respublikasının Qanunvericiliyi"** – Saziş və Digər sazişlər də daxil olmaqla, Azərbaycan Respublikasında normativ-hüquqi akt qüvvəsinə malik olan qanunlar, qaydalar, normalar, göstərişlər, qərarlar, protokollar və digər sənədlər deməkdir.

**"Azərbaycan təchizatçıları"** – Sazişin 18.1(a) bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında qeydə alınmış (həmçinin xarici investorların iştirakı ilə təsis edilmiş) və Azərbaycan Respublikasında qanuni əsaslarla sahibkarlıq fəaliyyəti göstərən və vergiləri birbaşa Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürən, sahiblik və/və ya istifadə hüquqları ilə müvafiq torpaq sahələri, infrastruktur obyektləri, texniki vəsaitləri, aparıcı texnologiyaları, işçi qüvvəsi, texniki və kommersiya bilikləri, idarəçilik qabiliyyəti və təcrübəsi, maliyyə vəsaitləri və Azərbaycan Respublikasında fəaliyyət göstərməyə əsas verən lisenziyaları və digər hüquqları olan hüquqi şəxslər deməkdir.

**"Partiya"** – təqvim ayı ərzində ixrac edilmiş və bir Konosamentə uyğun olaraq bir mal alana göndərilmiş, yaxud ayrıca alqı-satqı müqaviləsinə əsasən satılmış Karbohidrogenlərin həcmi deməkdir.

**"Konosament"** – malgöndərəndən mal alana göndərilməsi üçün limandan və ya terminaldan dəniz gəmisinə yüklənmiş Xam neftin həcmini müəyyən edən yük-nəqliyyat sənədi deməkdir.

**"İş günü"** – şənbə, bazar günləri və Azərbaycan Respublikasında iş günü hesab edilməyən bayram günləri olan günlərdən başqa həftənin hər hansı günü deməkdir.

**"Təqvim rübü"** – hər hansı Təqvim ilində yanvarın birində (1-də), aprelin birində (1-də), iyulun birində (1-də) və oktyabrın birində (1-də) başlanan üç (3) ardıcıl aydan ibarət dövr deməkdir.

**"Azerbaijan Legislation"** means the laws, rules, regulations, orders, decrees, protocols and other documents having the full force and effect of normative legal acts in the Republic of Azerbaijan, including the Contract and any Other Contracts.

**"Azerbaijani Suppliers"** means, in accordance with Article 18.1(a) of the Contract, juridical entities registered in the Republic of Azerbaijan (including with the participation of foreign investors), legally engaging in business activity in the Republic of Azerbaijan and remitting taxes directly to the state budget of the Republic of Azerbaijan and possessing and/or having access to certain land areas, infrastructure, technical facilities, advanced technology, manpower, technical and commercial knowledge, management skills and experience, financial resources, licences and other rights for activity in the Republic of Azerbaijan.

**"Batch"** means the volume of Petroleum exported within a calendar month consigned to a single consignee under a Bill of Lading, or exported under a separate sales contract.

**"Bill of Lading"** means a consignment document that prescribes the quantity of Crude Oil dispatched by a consignor to a consignee from a port or a terminal where such Crude Oil has been loaded onto a marine vessel.

**"Business Day"** means any day of the week except Saturday, Sunday and those days that are non-business public holidays in the Republic of Azerbaijan.

**"Calendar Quarter"** means a period of three (3) consecutive months commencing on the first (1st) of January, the first (1st) of April, the first (1st) of July, or the first (1st) of October of any Calendar Year.

**"Təqvim ili"** – Qriqori təqviminə əsasən yanvarın birində (1-də) başlanan və dekabrın otuz birində (31-də) başa çatan on iki (12) ardıcıl aydan ibarət dövr deməkdir.

**"Saziş"** – Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Podratçı arasında imzalanmış və qüvvəyə minmiş "Azərbaycan Respublikasında Buzovna-Maştağa, Qala və Zirə neft yataqlarının daxil olduğu blokun bərpası və işlənməsi ilə əlaqədar" Risk Xidmət Sazişi (ona edilən hər hansı uzadılmalar, təzələmələr və ya dəyişikliklər daxil olmaqla) deməkdir.

**"Kontrakt sahəsi"** – Sazişin 2-ci Əlavəsində verilmiş təsvirə və konturlara uyğun olan sahə (Sazişin qüvvədə olduğu və uzadıla biləcəyi bütün müddət ərzində hər vaxt işlənilə bilən, səthdən tutmuş qazmanın texniki cəhətdən mümkün olan bütün dərinliklərədək), ondan sonra isə həmin sahənin Podratçı tərəfindən Sazişin şərtlərinə əsasən imtina edilməyən hər hansı hissəsi deməkdir.

**"Podratçı"** – birlikdə bütün Podratçı tərəflər deməkdir.

**"Podratçı tərəf"** – Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Sazişi imzalamış tərəflərin hər hansı biri və onların hüquq varisləri və müvəkkillərinin hər hansı biri deməkdir.

**"Gömrük orqanı"** – Dövlət Gömrük Komitəsi və ya onun Sazişə əsasən həyata keçirilən idxal və ixrac əməliyyatlarına nəzarət etməyə və Sazişin və bu Protokolun müddəalarını icra etməyə səlahiyyət verilmiş hər hansı idarəsi deməkdir.

**"Gün"** – hər təqvim günü 00 saatda, :00 dəqiqədə, :01 saniyədə başlayan və təqvim günü ilə uyğun gələn iyirmi dörd (24) saatlıq müddət deməkdir.

**"Dollar"** və ya **"$"** – Amerika Birləşmiş Ştatlarının pul vahidi deməkdir.

**"Xarici Subpodratçı"** – Azərbaycan Respublikası hüdudlarından kənarda qeydə alınmış, qanuni yolla yaradılmış, yaxud təşkil edilmiş hər hansı hüquqi şəxs və ya təşkilat olan Subpodratçı deməkdir.

**"Calendar Year"** means a period of twelve (12) consecutive months beginning on the first (1st) of January and ending on the following thirty-first (31st) of December according to the Gregorian Calendar.

**"Contract"** means the Risk Service Agreement related to the Rehabilitation and Development of the block including the Buzovna-Mashtaga, Gala and Zyria oil fields in the Republic of Azerbaijanbetween the State Oil Company of the Republic of Azerbaijan and the Contractor, together with any extension, renewal or modification thereof.

**"Contract Area"** means the area (from the surface to any and all depths accessible to drilling technology as may be developed from time to time during the term of the Contract as may be extended) as described and delineated in Appendix 2 to the Contract, and thereafter the whole or any part of such area that has not been relinquished by Contractor in accordance with the terms of the Contract.

**"Contractor"** means all the Contractor Parties collectively.

**"Contractor Party"** means any one of the parties signatory to the Contract with the State Oil Company of the Republic of Azerbaijan, and any of their successors and assignees.

**"Customs Authority"** means the State Customs Committee or any subdivision thereof duly authorised to oversee the import and export operations under the Contract and to implement the respective provisions of the Contract and this Protocol.

**"Day"** means the twenty-four- (24-) hour period beginning at 00:00:01 coinciding with each calendar day.

**"Dollars"** or **"$"** means the currency of the United States of America.

**"Foreign Sub-contractor"** means a Sub-contractor which is an entity or organisation which is incorporated, legally created or organised outside the Republic of Azerbaijan.

**"Hökumət"** və ya **"Hökumət orqanı"** – Azərbaycan Respublikasının Hökuməti və onun hər hansı siyasi və ya başqa orqanı, o cümlədən yerli hökumət orqanları, bələdiyyələr, habelə hər cür başqa təmsiledici orqanlar, baş idarələr və ya idarə etmək, qanunlar və qaydalar qəbul etmək, vergilər və rüsumlar qoymaq və ya tutmaq, lisenziyalar və icazələr vermək, Sazişlə və bu Protokolla əlaqədar SOCAR-ın və/yaxud Podratçının hər hansı hüquqlarını, öhdəliklərini və ya fəaliyyətini təsdiq etmək, yaxud bunlara başqa tərzdə birbaşa və ya dolayısı ilə (maliyyə sahəsində və ya digər sahədə) təsir etmək səlahiyyətləri verilmiş hakimiyyət orqanları deməkdir.

**"Government"** or **"Governmental Authority"** means the government of the Republic of Azerbaijan and any political or other subdivision thereof, including any local government, municipality, or other representative, agency or authority, which has the authority to govern, legislate, regulate, levy or collect taxes or duties, grant licenses and permits, approve or otherwise impact (whether financially or otherwise), directly or indirectly, any of SOCAR's and/or Contractor's rights, obligations or activities under the Contract and this Protocol.

**"Karbohidrogen fəaliyyəti"** – Saziş çərçivəsində Podratçının bilavasitə və ya Əməliyyat şirkəti vasitəsilə apardığı Neft-qaz əməliyyatlarının Azərbaycan Respublikasında və ya onun hüdudlarından kənarda həyata keçirilməsindən asılı olmayaraq bütün fəaliyyət növləri deməkdir.

**"Hydrocarbon Activities"** means all Petroleum Operations carried out in connection with the Contract by Contractor, directly or through the Operating Company, whether such activities are performed in the Republic of Azerbaijan or elsewhere.

**"Manat"** – Azərbaycan Respublikasının pul vahidi deməkdir.

**"Manat"** means the currency of the Republic of Azerbaijan.

**"Əməliyyat şirkəti"** – Sazişin 6-cı Maddəsinə uyğun olaraq Podratçının adından Neft-qaz əməliyyatları aparmaq üçün müəyyən müddətə təyin edilən şirkət deməkdir.

**"Operating Company"** means a company appointed for the time being to conduct Petroleum Operations on behalf of Contractor in accordance with Article 6 of the Contract.

**"Digər saziş"** – Sazişdən başqa, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilmiş istənilən hasilatın pay bölgüsü haqqında saziş, tranzit ərazisinə malik ölkənin hökuməti ilə saziş, neft və qaz müqaviləsi, neft və qazın boru kəməri ilə nəqletmə sazişi və ya idxal və ixrac Vergilərindən və rüsumlarından azad olunmanı təmin edən digər müqavilə (onlara edilən hər hansı uzadılmalar, təzələmələr və ya dəyişikliklər daxil olmaqla) deməkdir.

**"Other Contract"** means any production sharing agreement, host government agreement, oil and gas contract, oil and gas pipeline transportation contract or other contract which provides for exemption from import and export Taxes and duties, other than the Contract, and which has been ratified by the Parliament of the Republic of Azerbaijan, including any extensions, renewals or amendments thereof.

**"Digər saziş üzrə fəaliyyət"** – hər hansı Digər sazişin müddəalarına uyğun olaraq həyata keçirilən fəaliyyət, o cümlədən karbohidrogen fəaliyyəti, neft-qaz əməliyyatları, layihə fəaliyyəti, satış fəaliyyəti və ya müvafiq boru kəməri üzrə fəaliyyət deməkdir.

**"Other Contract Activities"** means the activities, including hydrocarbon activities, petroleum operations, project activities, sales activities or relevant pipeline activities, carried out in accordance with the provisions of any Other Contract.

**"Digər qeydiyyatdan keçmiş şirkət"** – hər hansı Digər saziş üzrə fəaliyyətlə əlaqədar fəaliyyət göstərən podratçı tərəf, layihə iştirakçısı, ortaq şirkət, əməliyyat şirkəti, podratçı, subpodratçı və ya agent deməkdir.

**"Other Registered Company"** means any contractor party, project participant, affiliate, operating company, contractor, sub-contractor or agent operating in connection with any Other Contract Activities.

**"Karbohidrogenlər"** – Xam neft və Təbii qaz deməkdir.

**"Neft-qaz əməliyyatları"** – Azərbaycan Respublikasında və ya onun hüdudlarından kənarda aparılmasından asılı olmayaraq, Karbohidrogenlərin kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi, çıxarılması, hasilatı, sabitləşdirilməsi, hazırlanması (o cümlədən Təbii qazın hazırlanması), oyadılması, təzyiq göstərilməsi, toplanması, saxlanması, yükvurma avadanlıqları üçün dəmir yolların və ya avtomobil yollarının çəkilməsi, dəmir yol şəbəkəsi və ya mövcud boru kəmərləri üçün birləşdirici giriş məntəqələrin tikilməsi, yerləşdirilməsi, yüklənib göndərilməsi, Çatdırılma məntəqəsinə (məntəqələrinə) qədər nəql edilməsi və Kontrakt sahəsində hasil edilmiş Karbohidrogenlərin marketinqi və Kontrakt sahəsi ilə bağlı ləğvetmə işləri ilə bağlı bütün əməliyyatlar deməkdir.

**"Protokol"** – bu protokola qoşulmuş əlavələrlə birlikdə bu sənəd və eləcə də tərəflərin yazılı surətdə razılaşdırdıqları hər hansı uzadılmalar, təzələmələr və dəyişikliklər deməkdir.

**"Qeydiyyatdan keçmiş şirkət"** – hər hansı Podratçı tərəf, onun Ortaq şirkəti, Əməliyyat şirkəti, Subpodratçı, yaxud yuxarıda göstərilənlərdən hər hansı birinin Agenti deməkdir.

**"Subpodratçı"** – Podratçı tərəf və ya Əməliyyat şirkəti ilə, yaxud Podratçı tərəf və ya Əməliyyat şirkətinin adından birbaşa və ya dolayısı ilə Sazişlə bağlı mallar təqdim edən, işlər görən, yaxud xidmətlər göstərən hər hansı fiziki və ya hüquqi şəxs deməkdir. "Dolayısı ilə" ifadəsi Subpodratçıya Sazişlə bağlı malları təqdim edən, işlər görən, yaxud xidmətlər göstərən hər hansı fiziki və ya hüquqi şəxsi (Podratçı tərəf və ya Əməliyyat şirkətindən başqa) əhatə edir.

**"Vergi"** və ya **"Vergilər"** – hər hansı Hökumət orqanı tərəfindən qoyulan və ya tutulan hər hansı hazırkı və ya gələcək rüsumlar, gömrüklər, tədiyələr, qonorarlar, vergilər (o cümlədən idxal və ixrac ƏDV-si), və ya digər haqlar deməkdir.

**"ƏDV"** – Azərbaycan Respublikasının əlavə dəyər vergisi deməkdir.

**"Petroleum"** means Crude Oil and Natural Gas.

**"Petroleum Operations"** means all activities relating to the exploration, appraisal, development, extraction, production, stabilisation, treatment (including processing of Natural Gas), stimulation, injection, gathering, storage, building rail or roads for loading facilities, building connecting entry point to the rail network or to existing pipelines, handling, lifting, transporting Petroleum to the Delivery Point and marketing of Petroleum from, and abandonment operations with respect to, the Contract Area, whether such activities are performed in the Republic of Azerbaijan or elsewhere.

**"Protocol"** means this document, together with the appendices attached to this protocol, and any extension, renewal, or amendment thereof agreed to in writing by the parties.

**"Registered Company"** means any Contractor Party, its Affiliate, Operating Company, a Sub-contractor, or an Agent of any of the foregoing.

**"Sub-contractor"** means any natural person or juridical entity contracted directly or indirectly by or on behalf of a Contractor Party or by or on behalf of an Operating Company, to supply goods, works or services related to the Contract. The expression "indirectly" shall specifically include any individual or legal entity (other than a Contractor Party or an Operating Company) contracted to supply material, equipment, goods, works or services related to the Contract to said Sub-contractor.

**"Tax"** or **"Taxes"** means any and all existing or future levies, duties, payments, fees, taxes (including import and export VAT) or contributions payable to or imposed by any Governmental Authority.

**"VAT"** means the Azerbaijan Republic value added tax.

**Əlavə 2**

## İDXAL VƏ İXRAC RÜSUMLARI VƏ VERGİLƏRİNDƏN AZAD OLMA HAQQINDA SERTİFİKAT

Şirkətin adı ____________________
Statusu ____________________
Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi ____________________
Sertifikatın nömrəsi ____________________
Qüvvəyə minmə tarixi ____________________
Qüvvədən düşmə tarixi ____________________

Bununla təsdiq edilir ki, yuxarıda qeyd olunan şəxs tərəfindən və ya şəxs üçün Karbohidrogen fəaliyyəti və ya Neft-qaz əməliyyatları ilə bağlı olaraq təqdim edilən mallar, görülən işlər və ya göstərilən xidmətlərlə əlaqədar:

1. Burada adı çəkilən tərəf, onun əməkdaşları və onların ailə üzvləri aşağıdakıları bütün Vergilərdən azad şəkildə (idxal/ixrac vergiləri və rüsumları tutulmadan) Azərbaycan Respublikasına idxal və oradan ixrac etmək hüququna malikdirlər:

   a) Karbohidrogen fəaliyyətinin və ya Neft-qaz əməliyyatlarının müvafiq qaydada aparılması və yerinə yetirilməsi üçün həmin tərəfin əsaslandırılmış rəyinə əsasən lazım olan bütün avadanlıqlar, materiallar, maşınlar, alətlər, nəqliyyat vasitələri, ehtiyat hissələri, başqa əşyalar (qida məhsulları, spirtli içkilər və tütün məmulatı istisna olmaqla); və

   b) Həmin tərəfin Azərbaycan Respublikasında işə təyin edilmiş və ya Azərbaycan Respublikasına ezam olunan əcnəbi əməkdaşlarının və onların ailə üzvlərinin şəxsi istifadəsi üçün (qida məhsulları, spirtli içkilər və tütün məmulatı istisna olmaqla) mebellər, geyimlər, məişət cihazları, nəqliyyat vasitələri, ehtiyat hissələri



**Appendix 2**

## CERTIFICATE OF EXEMPTION FROM IMPORT AND EXPORT DUTIES AND TAXES

Name of Company ____________________
Status ____________________
Tax Identification Number ____________________
Number of Certificate ____________________
Effective Date ____________________
Date of Expiry ____________________

It is hereby certified that in connection with supplies of goods, works or services made in connection with Hydrocarbon Activities or Petroleum Operations by or to the above mentioned person that:

1. The party named herein, its employees and their family members, shall be entitled to import into and export from the Republic of Azerbaijan the following free of all Taxes (with no import/export taxes and duties charged):

   a) All equipment, materials, machinery, tools, vehicles, spare parts, goods and supplies (excluding foodstuff, alcohol and tobacco products) necessary in such party's reasonable opinion for the proper conduct and achievement of Hydrocarbon Activities or Petroleum Operations; and

   b) Furniture, clothing, household appliances, vehicles, spare parts and all personal effects (excluding foodstuffs, alcohol and tobacco products) for personal use by such party's foreign employees and their families assigned to work in, or travel to, the Republic of Azerbaijan.

2. Yuxarıda adı qeyd edilən tərəfin statusu Podratçı tərəf, Ortaq şirkət, Agent və ya Əməliyyat şirkəti olduğu halda həmin tərəf istənilən vaxt Karbohidrogenləri bütün Vergilərdən azad şəkildə (idxal/ixrac vergiləri və rüsumları tutulmadan və mənfəət Vergisini ödəməklə) ixrac etmək hüququna malikdir.

3. Azərbaycan Respublikasının gömrük orqanları burada qeyd olunan idxal və ya ixrac əməliyyatlarını heç bir Vergiyə cəlb etmir (idxal/ixrac vergiləri və rüsumları tutmur).

4. Qüvvədə olma müddəti başa çatdıqdan sonra bu sertifikat Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə təhvil verilir.

2. If the status of the party named herein, as indicated above, is that of Contractor Party, Affiliate, Agent or Operating Company, such party shall be entitled to export Petroleum free of all Taxes (with no import/export taxes and duties charged, and except for profit Tax) and at any time.

3. Customs authorities of the Republic of Azerbaijan shall charge no Taxes (with no import/export taxes and duties charged) on those imports or exports described herein.

4. Upon expiration hereof, this certificate shall be surrendered to the State Customs Committee of the Republic of Azerbaijan.

______________________________

Dövlət Gömrük Komitəsinin məsul şəxsinin imzası

______________________________

Dövlət Gömrük Komitəsinin məsul şəxsinin adı

______________________________

Dövlət Gömrük Komitəsinin məsul şəxsinin vəzifəsi

______________________________

Tarix və Dövlət Gömrük Komitəsinin möhürü

______________________________

Signature of State Customs Committee Official

______________________________

Name of State Customs Committee Official

______________________________

Title of State Customs Committee Official

______________________________

Date and State Customs Committee Seal

**Əlavə 3**

## İDXAL VƏ İXRAC RÜSUMLARI VƏ VERGİLƏRİNDƏN AZAD OLMA HAQQINDA SERTİFİKAT ALMAQ ÜÇÜN ƏRİZƏ

Kimə: Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə

Müraciət edən tərəf: (*Ərizə verənin adı*)

"Azərbaycan Respublikasında Buzovna-Maştağa, Qala və Zirə neft yataqlarının daxil olduğu blokun bərpası və işlənməsi ilə əlaqədar" Risk Xidmət Sazişi üzrə "Azərbaycan Respublikasının idxal və ixrac rüsumları və vergiləri haqqında" Protokolun 2-ci maddəsinə uyğun olaraq xahiş edirəm ki, İdxal və ixrac rüsumları və Vergilərindən azad olma haqqında Sertifikat verəsiniz. Bu məsələyə baxmaqda Sizə kömək məqsədilə aşağıdakı informasiya təmin edilir:

1. (*Ərizə verənin adı*) Karbohidrogen fəaliyyəti və ya Neft-qaz əməliyyatları ilə əlaqədar malları, işləri və ya xidmətləri bilavasitə və ya dolayısı ilə (*mallar, işlər və ya xidmətləri bilavasitə və ya dolayısı ilə qəbul edən Podratçı tərəfin və ya Əməliyyat şirkətinin adı*) üçün təqdim edir.

2. Bu ərizənin əlavəsində müqavilənin gözlənilən müddətinin təfərrüatları da daxil olmaqla (*ərizə verənin adı*) tərəfindən təqdim edilməli malların, işlərin və ya xidmətlərin təsviri verilir və həmin mallar, işlər və ya xidmətlərlə əlaqədar idxal və ixrac Vergilərinin tutulmamasının səbəbi izah edilir.

____________________

Ərizə verənin imzası

____________________

Sertifikat təzələndikdə qüvvədə olan sertifikatın nömrəsi

**Appendix 3**

## APPLICATION FOR CERTIFICATE OF EXEMPTION FROM IMPORT AND EXPORT DUTIES AND TAXES

To: State Customs Committee of the Republic of Azerbaijan

From: (*Name of Applicant*)

In accordance with Paragraph 2 of the Protocol Concerning Azerbaijan Import and Export Duties and Taxes for the Risk Service Agreement related to the Rehabilitation and Development of the block including the Buzovna-Mashtaga, Gala and Zyria oil fields in the Republic of Azerbaijan, please issue a Certificate of Exemption from Import and Export Duties and Taxes. To assist in your consideration of the matter, the following information is provided:

1. (*Name of Applicant*) will make supplies of goods, works or services directly or indirectly to (*name of Contractor Party or Operating Company directly or indirectly receiving the goods, works or services*) in connection with Hydrocarbon Activities or Petroleum Operations.

2. Attached is a description of the goods, works or services to be supplied by (*name of Applicant*), including details of the expected duration of the contract and an explanation of the reason why these supplies should have no import and export Taxes charged.

____________________

Signature of Applicant

____________________

Current Certificate number for renewal application

**Əlavə 4**

## SUBPODRATÇILARIN İDXAL VƏ İXRAC RÜSUMLARI VƏ VERGİLƏRİNDƏN AZAD OLMA HAQQINDA SERTİFİKAT ALMAQ ÜÇÜN ƏRİZƏYƏ ƏLAVƏ

Kimə: Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə

Kimdən: (*Ərizə verən ilə müqavilə bağlamış tərəfin adı*)

**Mövzu: Fəaliyyət barədə yazılı bildiriş**

(*Əməliyyat şirkətinin, Podratçı tərəfin və ya Subpodratçının adı*) bu məktubla təsdiq edir ki, (*Ərizə verənin adı*) (*Əməliyyat şirkəti və ya Podratçı tərəfin adı*) ilə birbaşa və ya dolayısı ilə bağlanmış müqaviləyə əsasən Karbohidrogen fəaliyyəti ilə əlaqədar onun Subpodratçısıdır və "Azərbaycan Respublikasında Buzovna-Maştağa, Qala və Zirə neft yataqlarının daxil olduğu blokun bərpası və işlənməsi ilə əlaqədar" Risk Xidmət Sazişi üzrə "Azərbaycan Respublikasının idxal və ixrac rüsumları və vergiləri haqqında" Protokol ona şamil olunur.

Subpodratçı haqqında qısa məlumat:

1. Subpodratçının adı: __________________

2. Yerinə yetiriləcək işin növü: __________________

3. Müqavilənin başlanğıc tarixi: __________________

4. Müqavilənin planlaşdırılmış başa çatma tarixi: __________________

5. Müqavilənin ümumi dəyəri (müqavilədə nəzərdə tutulubsa) ____________

Protokolun 2-ci maddəsinə uyğun olaraq xahiş edirəm ki, (*Ərizə verənin adı*) İdxal və ixrac rüsumları və Vergilərindən azad olma haqqında Sertifikat verəsiniz.

**Appendix 4**

## ATTACHMENT TO APPLICATION FOR CERTIFICATE OF EXEMPTION FROM IMPORT AND EXPORT DUTIES AND TAXES FOR SUB-CONTRACTORS

To: State Customs Committee of the Republic of Azerbaijan

From: (*Name of Party contracted with Applicant*)

**Subject: Written Notice of Activities**

By this letter (*name of Operating Company, Contractor Party or Sub-contractor*) confirms that (*name of Applicant*) is its Sub-contractor in connection with Hydrocarbon Activities pursuant to a direct or indirect contract with (*name of Operating Company or Contractor Party*) and falls within the Protocol Concerning Azerbaijan Import and Export Duties and Taxes for Risk Service Agreement related to the Rehabilitation and Development of the block including the Buzovna-Mashtaga, Gala and Zyria oil fields in the Republic of Azerbaijan.

Brief information about Sub-contractor:

1. Name of the Subcontractor __________________

2. Type of work to be performed __________________

3. Commencement date of the contract __________________

4. Estimated date of completion of the contract __________________

5. Total contract value (if stipulated in the contract) __________________

In accordance with Paragraph 2 of the Protocol, please issue a Certificate of Exemption from Import and Export Duties and Taxes to (*name of Applicant*).

İdxal və ya ixrac olunan malların, işlərin və ya xidmətlərin daha ətraflı siyahısı əlavə olunur.

Enclosed is a more detailed list of the goods, works or services imported or exported.

____________________

Ərizə verənin imzası

Signature of Applicant

____________________

Ərizə verən ilə müqavilə bağlamış tərəfin imzası

Signature of Party contracted with Applicant

____________________

Əməliyyat şirkətinin və ya Podratçı tərəfin imzası

Signature of Operating Company or Contractor Party